Elm və İnnovativ Texnologiyalar Jurnalı
https://doi.org/10.30546/2616-4418.32.2025.2034
Nömrə 32, 2025. 34-58
http://www.ejsr.org

# AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL MÜDAFİƏ İSLAHATLARININ SOSİAL İNKİŞAFA İNSTİTUSİONAL TƏSİRLƏRİ

**Emin ƏLİRZAYEV**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**0000-0001-8622-6905**

## Giriş

Əhali ehtiyaclarının ödənilməsində tarazlığın təmin olunması üçün tənzimlənilmə mahiyyətli təbdirlər sistemini əhatə etməklə dövlət tərəfindən təmin olunan dəstək mexanizmi mahiyyətində qəbul olunan sosial müdafiə sistemi çərçivəsində islahatların həyata keçirilməsində xarakterik cəhət kimi, həmin islahatların konret istiqamətlərə yönəldilməsilə bərabər, əslində bu yönümlü təbdirlərin kompleks olaraq ümumi məqsədi – ilk növbədə fərdin (insanın) və nəhayət, cəmiyyətdə davamlı məsələ olan - sosial inkişafına nail olmaqdır.

BY NC ND

Sosial müdafiə islahatlarının həyata keçirilməsinin əsas nəticələri özünü sosial-iqtisadi inkişaf üzrə müxtəlif parametrlərin kəmiyyət və keyfiyyət yaxşılaşdırılmasında, xüsusən əhalinin həyatının sosial aspektlərinin yaxşılaşmasında və sosial rifahının yüksəlməsində göstərməlidir.

Müxtəlif aspektlər üzrə ümumi yanaşmada fərdin və cəmiyyətin həyat fəaliyyəti üzrə münasibətlərin yaxşılaşması vəziyyəti olaraq başa düşülən, o cümlədən özündə əsas hərəkətverici kimi, iqtisadi amilləri ehtiva edən və dövlətin də maraq dairəsində olan sosial inkişafın təmin olunmasının sosial-iqtisadi qiymətləndirilmə müstəvisində aparılması zəruri idarəetmə məsələlərindəndir.

Bu istiqamətdə müəyyənləşdirilən məqsədlərə nail olunması üçün sosial və iqtisadi əsaslı bir sıra proses və hadisələrin kəmiyyət qiymətləndirilməsi və təhlilinin aparılması tələb olunur ki, bu da elmi-nəzəri bazaya əsaslanan yanaşmalara əsaslanılma şəraitində təmin edilə bilər.

Sosial dövlət modelinin dövlət idarəetməsi strategiyasının əsas sütunu kimi qəbul olunduğu Azərbaycan Respublikasında sosial müdafiə sistemində prioritetlərin milli modelinin qurulması baxımından sosial müdafiə islahatlarının sosialyönümlü aspektlərinin inkişafına diqqət yetirilməsi tələb olunmaqla, bu istiqamətdə davamlı elmi tədqiqatların aparılması və innovativ sosial yanaşmaların ortaya qoyulması qloballaşma şəraitində praktiki əhəmiyyət kəsb etməkdədir.

## Ədəbiyyat araşdırması

Elmi mənbələr və elektron resurslar üzrə apardığımız araşdırmalar bütövlükdə seçilən mövzunun ölkəmiz timsalında iqtisadi yanaşmada tədqiq olunmadığı nəticəsinə gəlməyə imkan verir. Mövzunun ana xəttini təşkil edən - sosial müdafiə islahatlarının bilavasitə sosial inkişafa institusional təsirləri yönündə azərbaycandilli yazılı və elektron mənbələrdə dərc olunmuş yazılara, yaxud yayımlanılmış məlumatlara rast gəlinmədiyi, mövzunun eyni zamanda Azərbaycan Respublikası timsalında tədqiqata həsr olunduğu nəzərə alınaraq, tədqiqatın əsasən mövcud normativ bazadan, eləcə də müvafiq rəsmi dövlət orqanlarının və qurumlarının açıqladığı informasiyalardan istifadə edilməklə və sahə üzrə praktiki nəticələr diqqətə alınmaqla aparılması daha məqsədəmüvafiq hesab olunmuşdur.

Bununla yanaşı, bilavasitə respublikamız timsalında olmasa da, ümumi elmi araşdırmalar və onların nəticələrini əks etdirdiyi nəzərə alınaraq, qeyd etmək lazımdır ki, sosial müdafiənin sosial həyatın müxtəlif aspektləri üzrə elementlərinin özünün inkişafına bilavasitə göstərməklə, nəticə etibarilə sosial müdafiənin sosial inkişafın struktur dəyişməsinə təsirini anlamağa imkan verən beynəlxalq araşdırmalar yetərincədir.

Xüsusən hər bir cəmiyyətdə daha böyük sosial təsir imkanlarına malik olması qəbul edilən - kəndin sosial-iqtisadi inkişafı baxımından sosial müdafiənin effektiv sosial sığorta, məşğulluq və sosial yardım proqramları ilə əhatə olunmasının prioritetliyi vurğulanılmaqla, sosial müdafiənin sosial və iqtisadi inkişafın keyfiyyətcə daha təkmil strukturda, xüsusən keyfiyyətli qidalanma, təhsil və inkluziv sosial müdafiə olunmağa şərait yaradan çoxaspektli insan inkişafının formalaşmasındakı rolu son tədqiqatlarla da vurğulanılmaqdadır (Kangasniemi et al.). Eyni zamanda kəndin sosial-iqtisadi inkişafının ölkəmiz üçün də prioritetliyi baxımından bu mənada praktiki həll istiqamətlərinin axtarılması mühüm elmi əhəmiyyət kəsb etməkdədir.

Həmçinin, yaxın ötən dövrdə ölkələrin sosial inkişafına olduqca mənfi təsir göstərmiş COVID-19 pandemiyası kimi böhranlı vəziyyətlərdə sosial müdafiə proqramlarının həyat səviyyəsinin qorunması ilə bağlı dəstəkləyici təsirlərinə dair həssas əhali təbəqələrinin daha çox məskunlaşdığı Afrika ölkələri timsalında yaxın ötən müddətdə elmi araşdırılmalar aparılmışdır ki (Abay et al.), həmin tədqiqatlar da sosial müdafiənin sosial inkişafla əlaqədə işlənilməsi zərurəti barədə əsaslı baxışlar formalaşdırır.

Qlobal səviyyədə müasir şəraitdə xüsusilə nağd və natura formasında əhaliyə transfertlərin ödənilməsini nəzərdə tutan sosial müdafiə proqramlarının əhali yoxsulluğu problemi ilə mübarizədə, böhranlı hallara reaksiya verilməsində, iqlim dəyişkənliyi ilə bağlı yaranan çətinliklərlə başa çıxmada, həmçinin yerli konfliktlərin qarşısının alınmasında, milli hökümətlərə etimadın artırılmasında, yığımın intensivləşməsini stimullaşdırmaqla iqtisadi inkişaf üçün maliyyə resurslarının təmərküzləşməsində, makro səviyyədə gəlir tarazlığının təmin edilməsi, gender zorakılığının qarşısının alınması, qadın məşğulluğun gücləndirilməsi kimi məsələlərdə müstəsna rolu baxımından həmin proqramların inkluzivlik, adaptivlik xüsusiyyətləri mənimsənilməklə, eyni zamanda maliyyə çərçivəsinin büdcə tərtibatı baxımından rasional və böhran əsaslı proqnozlaşdırılma mühitində hazırlanması aktual məsələlərdən hesab edilir (Hirvonen).

## Araşdırma metodologiyası

Tədqiqatın aparılması empirik-nəzəri dərketmə və araşdırma, analiz və sintez, induktiv və deduktiv yanaşma, müqayisə, nəzəri modelləşdirmə, abstraktlaşdırma metodlarından, eləcə də zəruri məqamlarda iqtisadi-statistik hesablama metodlarından istifadə edilməklə, mövcud olan əlaqədar nəzəri baza üzərində milli (lokal) nümunədə sahə üzrə praktikanın ümumiləşdirilməsinə əsaslanır.

## Müzakirə

***1. Azərbaycanda sosial müdafiə islahatlarının sosial inkişafa institusional təsirlərinin önə çıxan istiqamətləri və xüsusiyyətləri***

Azərbaycanda dövlət müstəqilliyinin yenidən əldə olunmasından sonra bazar iqtisadiyyatı münasibətləri şəraitində sosial dövlət quruculuğuna istiqamətlənilmiş islahatların həyata keçirilməsi sosial siyasətin tərkib hissəsi kimi, sosial müdafiə islahatlarının da prioritetlərini formalaşdırmışdır. Yerli sosial, iqtisadi münasibətlər və mövcud problemlər nəzərə alınmaqla tətbiq olunan sosial müdafiə islahatları eyni zamanda dövlətin inkişaf hədəflərindən olan – sosial inkişafa münasibətdə sosial müdafiənin təsiri imkanlarını və əsas istiqamətlərini ortaya çıxarmışdır. Ötən dövr ərzində Azərbaycanda sosial inkişafa təsiri nöqteyi-nəzərdən iqtisadiyyatın dövlət tənzimlənilməsindəki rolu baxımından bir sıra sosial müdafiə istiqamətləri dominantlıq kəsb etmiş və həmin istiqamətlərin növbəti perspektiv üçün də inkişaf hədəflərinin müəyyən olunmasına imkan verə biləcək xüsusiyyətləri formalaşmışdır:

**Sığorta-pensiya münasibətlərinin inkişafı**

1992-ci ildən sonrakı bazar münasibətləri şəraitində geridə qoyduğumuz dövrün sosial-iqtisadi mənzərəsi göstərir ki, bu dövr ərzində Azərbaycanda dinamik genişlənən iqtisadi imkanların əhalinin sosial inkişafı yönündə uğurlu dəyərləndirilməsinə nail oluna bilinmişdir: Belə ki, başlıca əlamətdar cəhətlər olaraq, iqtisadi islahatlılıq baxımından uzunmüddətli hesab olunmayan bir zaman kəsiyi ərzində yeni - bazar iqtisadiyyatı münasibətlərinin qurulması nəticəsi olaraq yeni iqtisadi sistemə keçidlə dövlət quruculuğu prosesində bir sıra sosial islahatların da prioritet olaraq qəbul edilərək həyata keçirilməsi əhalinin sosial vəziyyətinin kəskinləşməsinin qarşısını alımış, cəmiyyətdə sosial stabilliyin qorunub saxlanılması, eyni zamanda sosial müdafiə sisteminin möhkəmləndirilməsi istiqamətində addımların atılması üçün münbit şərait yaranmışdır.

Ötən onilliklər ərzində sosial dövlət modelinin möhkəmləndirilməsi istiqamətində sosial müdafiə və təminat xərclərinin dövlət büdcəsi xərclərinin prioritet istiqamətlərindən biri kimi nəzərə alınması əsas infrastruktur amili kimi, sosial islahatların reallaşdırılması üçün zəruri maliyyə təminatının formalaşdırılmasını təmin etmişdir.

İlk növbədə dövlətin maliyyə imkanlarının sosial sahənin inkişafına yönəldilməsi strateji kurs olaraq bütün ötən dövrlərdə aydın və tendensiv surətdə hiss olunmuşdur. Respublikada ümumən milli iqtisadiyyatın davamlı iqtisadi artım tendensiyası ilə müşayiət olunduğu şəraitdə ən yaxın dövr olaraq, 2024-cü ilin timsalında dəyərləndirilmələrimiz də bu fikirləri təsdiqləməyə imkan verə bilər.

2024-cü il dövlət büdcəsinin 39,7 mlrd. həcmində müəyyən edilmiş xərclərinin 11,76 mlrd. manatlıq və ya 30 faizə yaxın hissəsi ümumilikdə sosial əhəmiyyətli xərclərə yönəldilmişdir. Büdcə xərclərinin tərkibində bilavasitə sosial müdafiə və təminat xərclərinin 2024-cü il dövlət büdcəsində payı – 4,4 mlrd. manat və ya təqribən 11 faiz təşkil etmişdir. Ölkədə sosial sahənin bilavasitə dövlət büdcəsi imkanları ilə deyil, eyni zamanda maliyyə-büdcə qanunvericiliyi çərçivəsində həmçinin büdcədənkənar məqsədli dövlət fondları vasitəsilə dəstəklənildiyi baxımından büdcədənkənar dövlət fondu olmaqla hər il üzrə xərclərinin orta hesabla 95 faizdən çox hissəsini əmək pensiyaları və məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən sosial müavinətlər təşkil edən - dövlət sosial müdafiə fondunun büdcəsindən əhaliyə ödəniş xərclərini də nəzərə alsaq, əhaliyə (benefisiarlara) sosial ödənişlər formasında transfert olunan sosial müdafiə və təminat xərclərinin real vəziyyətdə dövlət büdcəsinə münasibətdə nisbəti əmsalının daha yüksək olduğunu qeyd etmək olar. Bu yanaşmada dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında müvafiq qanunla əhaliyə ödəniş xərclərinin 6,7 mlrd. manat məbləğində proqnozlaşdırıldığı baxımından respublikada dövlət aparatı tərəfindən əhaliyə yönıldilmiş sosial müdafiə və təminat xərclərinin təqribən 11,1 mlrd. manat təşkil etdiyini görmək mümkündür ki, bu halda dövlətin icmal büdcə-maliyyə imkanlarının ən azından 28 faizlik hissəsinin birbaşa olaraq sosial müdafiə və sosial təminat xərclərinə yönəldildiyi qənaətinə gəlmək olar (“Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu”; “Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununun tətbiqi ilə bağlı”; “Dövlət sosial müdafiə fondunun” 2024-cü il büdcəsi haqqında”; “Büdcə sistemi haqqında”)

Xüsusən, ölkədə sosial dövlət quruculuğunun ilk vaxtlarından əsas sosial müdafiə mexanizmi olaraq mütərəqqi əsaslı sığorta-pensiya islahatlarının işlənilməsi və tətbiqi, əməkhaqqı sisteminin formalaşdırılması, əməkhaqlarının artımına gətirib çıxaran iqtisadi islahatların və potensialın formalaşması, eləcə də inzibati idarəetmə imkanlarının təkmilləşdiriməsi ilkin mərhələdə əhalinin sosial rifahının gücləndirilməsi üçün zəruri maliyyə bazası yaratmaqla, həyat standartlarının yaxşılaşmasında mühüm rol oynamış, sonrakı dövrlərdə dövlət sosial yardımı, sosial müavinətlər və kompensasiyalar, sosial xidmət və reabilitasiya istiqamətli tədbirlərin tətbiqinin genişləndirilməsi əhali gəlirlərinin davamlı artımını, real alıcılıq qabiliyyətini formalaşdırmaqla, eyni zamanda sosial müdafiəni gücləndirməklə dövr ərzində sosial vəziyyətin ümumən stabil saxlanılmasına imkan vermişdir.

Belə xarakterizə etmək olar ki, dövlət quruculuğunun ilkin mərhələsində sosial müdafiənin əsas hərəkətvericisi kimi, ilk növbədə pensiya təminatının gücləndirilməsi və pensiya sisteminin təkmilləşdirilməsi sosial istiqamətli inkişafda daha çox rol oynamışdır. Pensiya qanunvericiliyinə dair normativ bazanın məcmu halında toplanılması son olaraq 1969-cü ildə aparılmışdı (Əliyev, Mürşüdov 3). Vahid dövlət pensiya sisteminin müəyyən edilməsi üçün dörd növ üzrə - əmək “sosial sığorta” pensiyaları (yaşa (qocalığa), əlilliyə görə, ailə başçısını itirməyə və xidmət illərinə görə) və sosial pensiya kateqoriyalarına ayrılmaqla 1992-ci ildə qəbul edilmiş (2007-ci ilədək qüvvədə olmuş) 23 sentyabr tarixli 305 nömrəli “Vətəndaşların pensiya təminatı haqqında Qanun” qəbul edilmişdi ki, bu,

sığorta prinsipləri üzərində pensiya təminatının tənzimlənilməsinə keçid üçün əhəmiyyətli idi, eyni zamanda həmin qanunvericilik çərçivəsində pensiya təminatının sahibkarlıq fəaliyyəti ilə əlaqələndirilməsi, həmçinin sahibkarlığa söykənən, könüllü əsaslarla digər pensiyaların əldə olunması imkanlarının nəzərə alınması da nəzərəçarpan xüsusiyyətlərdən hesab oluna bilərdi. Bu dövr ərzində isə ilk dəfə olaraq AR Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli qərarı ilə "Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə, hamiləliyə və doğuma, uşaq doğumuna, uşağa qulluq edilməsinə görə və dəfn üçün sosial sığorta ayırmaları hesabına müavinətlərin ödənilməsi qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi və tətbiqi sığorta-pensiya münasibətlərinin tənzimlənilməsi üçün əsas baza rolunu oynadı.

Azərbaycan Respublikasında Ulu Öndər Heydər Əliyevin imzasıyla qəbul edilməklə müasir pensiya təminatının təməlləri hesab olunan sığorta prinsiplərinə və fərdi uçota əsaslanmaqla icbarilik, eləcə də könüllülük prinsiplərinin nəzərə alındığı dövlət, həmçinin qeyri-dövlət pensiya təminatı imkanlarının sosial sığorta sahəsində münasibətləri tənzimləyən, sosial sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edən 1997-ci il 18 fevral tarixli "Sosial sığorta haqqında" Azərbaycan Respiblikasının Qanunu ilə təsbit olunması və bu normativ-təşkilati əsaslara söykənilməklə fəaliyyətin qurulması qısa müddət ərzində əhalinin pensiya gəlirlərinin artımını təmin etməyə imkan verməklə, müstəqilliyin ilk illərindəki inflyasiya mənşəli təsirlərin də davamlı təhdidlərindən qurtulmağa, stabil bazarın formalaşmasına və ümumən sosial inkişafa da öz töhfəsini verən başlıca amillərdən biri kimi özünü göstərmişdir.

2001-ci 27 fevral tarixli 221-IIQ nömrəli Azərbaycan Respiblikası Qanunu ilə dövlət sosial sığorta sistemində Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq əmək pensiyası və sosial müdafiə sahəsində digər hüquqlarının təmin edilməsi üçün hər bir sığortaolunana dair qanunla nəzərdə tutulan məlumatların uçotunun təşkili və aparılmasını nəzərdə tutan - fərdi uçot sisteminin qurulması üçün normativ bazanı formalaşdırmaqla, eyni zamanda əmək münasibətlərinin inkişafına təsir göstərməklə pensiya təminatının sosial sığorta münasibətlərilə əlaqələndirilməsi pensiya təminatının sığorta prinsipilə həyata keçirilməsinin əsaslarını daha da gücləndirmiş olmuşdur ki, bu da 2006-cı ildə qəbul edilmiş və hazırkı dövrdə də müasir pensiya təminatının fəaliyyətinin söykəndiyi "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunun qısa müddətdə işləkliyinin reallaşdırılması üçün bünövrə əhəmiyyətini daşımışdır. Xüsusən, sığorta stajı ilə bilavasitə əlaqələndirilməyə söykənən yeni əsaslarla pensiya təminatının əsası kimi, fərdi uçot sistemində bütün sığortaolunanlar barəsində məlumat bazasının formalaşdırılması eyni zamanda inflyasiya prosesinin əhalinin real alıcılıq qabiliyyətinə mənfi təsirinin yumşaldılması mexanizmi kimi tətbiq edilən - təyin olunmuş pensiyaların nominal orta aylıq əməkhaqqının illik artım tempinə, fərdi hesablarda formalaşmaqda davam edən sığorta-pensiya kapitallarının isə hər ilin əvvəlində açıqlanılmış istehlak qiymətləri indeksinin əvvəlki illə müqayisədə artımına uyğun artırılaraq indeksləşdirilməsinə imkan verməklə, habelə pensiya məbləğlərinin hesablanması, yenidən hesablanması və digər hallların da avtomatlaşdırılmış qaydada həyata keçirilməsi üçün baza rolunda çıxış etmişdir.

Nəticə etibarilə dövlət sosial sığorta sistemində fərdi uçot sisteminin tətbiqi həmçinin əmək bazarı ilə sosial sığorta və pensiya təminatının əlaqələndirilməsini təmin etmiş, pensiya sisteminin gələcəyi üçün əhəmiyyətli hesab olunan əhali (sığortaolunanlara) münasibətdə eyni zamanda əhalinin sosial sığorta sisteminə marağının, sahə üzrə məlumatlılıq səviyyəsinin artmasına və sosial məsuliyyətlilik prinsipinin dərinləşməsinə təkan vermişdir.

Bu baxımdan sosial sığorta münasibətlərinin xüsusən də pensiya təminatının inkişafı nöqteyi-nəzərdən hazırda Azərbaycanda sosial müdafiənin əsas sütunu kimi qəbul olunduğu bariz şəkildə görünməkdədir.

**Əlilliyi olan şəxslərin sosial müdafiəsi**

Eyni zamanda əliliyi olan şəxslərin sistemli sosial müdafiəsinin təşkili istiqamətində mühüm məqamlardan olaraq, qeyd etmək lazımdır ki, bu kateqoriyadan şəxslərin maddi və digər formada sosial müdafiə ilə əhatə olunması ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi addımlarının getdikcə artması Azərbaycanda sosial müdafiədə sığorta-pensiya məsələləri ilə yanaşı, əlillərin sosial müdafiəsi və təminatının yaxşılaşdırılmasının da diqqət mərkəzində saxlanıldığını deməyə əsas verir.

Birləşmiş Millətlər Təşkilatının (BMT) "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasına və dünyada mövcud olan mütərəqqi yanaşmalara əsaslanmaqla, Azərbaycan 2008-ci ildə BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasına ilk qoşulan ölkələrdən biri olmuş, milli qanunvericiliyin həmin Konvensiyaya və ümumən əlilliyi olan şəxslərlə bağlı dünyada qabaqcıl təcrübələrdən irəli gələn yanaşmalara uyğunlaşdırılması məqsədilə 2018-ci ilin may ayında "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi, həmçinin həmin qanunun tətbiqi ilə əlaqədar əlilliyin qarşısının alınması, əlilliyi olan şəxslərin reabilitasiyası, təhsili, məşğulluğu, əlilliyi olan şəxslərin sosial təminatları və s. məsələlər əhatə edilməklə 20-ə yaxın yeni normativ hüquqi aktın hazırlanması, "Əlilliyi olan şəxslərin abilitasiyası qaydası" və "Fərdi Reabilitasiya Proqramının hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi qaydası", "İnfrastruktur obyektlərinin əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılması Qaydası" layihələrinin, əlilliyi olan şəxslərin turizm xidmətlərindən cəmiyyətin digər üzvləri ilə bərabər şəraitdə faydalanması üçün təkliflərin hazırlanması və digər istiqamətlərdə müvafiq fəaliyyətlərin həyata keçirilməsi təmin edilmişdir. 2019-cu ilin əvvəlindən ölkəmizdə ilk proaktiv xidmət kimi, yaşa görə pensiyaların, daha sonra əlilliyə görə pensiyaların avtomatlaşdırılmış qaydada təyinatına keçilmiş, nəticədə pensiya hüququ yaranmış şəxsə özü müraciət etmədən və sənəd təqdim olunmadan, məmur-vətəndaş təması olmadan pensiya təyin edilməsi və elektron qaydada ona bu barədə məlumat verilməsi üçün avtomatlaşdırılmış mexanizm yaradılmışdır. Sosial müavinətlərin, o cümlədən əlilliyi olan şəxslərə müavinətlərin, müvafiq kateqoriyalardan olan əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdünün, sağlamlıq imkanları məhdud uşaqlara müavinətin və həmin uşaqlara qulluq edənə Prezidentin təqaüdünün təyinatının da elektronlaşdırılmasını əlillərin sosial müdafiəsi ilə

bağlı son dövrlərdə baş vermiş əhəmiyyyətli institusional dəyişikliklərdən hesab etmək olar (“Azərbaycanda əlilliyi olan”).

AR Nazirlər Kabinetinin 18 may 2022-ci il tarixli 191 nömrəli qərarı ilə Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 11 nömrəli Qərarı ilə “Əlilliyin qiymətləndirilməsi Qaydası”na edilmiş və 2022-ci ilin 1 yanvar tarixindən qüvvəyə minmiş dəyişikliklərin xarakterik cəhəti - əlilliyin müəyyən edilməsinə yanaşmada əlilliyin konret xəstəlik siyahısı üzrə deyil, əlilliyin yeni müəyyən olunan meyarlarında nəzərdə tutulan insanın həyat fəaliyyətinin əsas kateqoriyaları və onların məhdudlaşma dərəcələrinin orqanizmin funksiyalarının pozulmasının faiz göstəricisi və müddətinə əsasən müəyyən olunmasına başlanılması və bu zaman orqanizmin funksiyalarının 30 faizədək pozulması hallarında əlilliyin müəyyən edilməməsi, 30 faizdən artıq pozulması hallarında isə pozulma dərəcələrinin 31-60 faizədək, 61-80 faizədək və 81-100 faizədək qiymətləndirilməklə müəyyən edilməsinə keçilməsidir (“Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 18 may 2022-ci il tarixli 191 nömrəli qərarı”).

Qeyd edək ki, bu islahat tədbirinin növbəti mərhələdə ilkin effektinin özünü əlillik təyinatlarının sayının azalmasında göstərəcəyi fikrini qəbuledilən hesab etmək olar. Bu isə ölkədə əlilliyi olan şəxslərin dəqiq müəyyən edilməsi və sosial müdafiə ilə əhatə edilməsi səviyyəsinin saxlanılması üçün bu sahədə təşkilati səylərin gücləndirilməsini tələb edir. Bu zaman təkmilləşmənin əsas istiqamətləri kimi, subyektivlik əsasında qərarların verilməklə sosial ədalət prinsiplərinin pozulmasına və ya tam riayət olunmamasına gətirib çıxaracaq halların nəzarətdə saxlanılması davamlı idarəetmə-monitorinq zərurəti kəsb etməkdədir.

Bu istiqamətdə ilk dəfə əlilliyi müəyyən edilən şəxslərin sayına dair rəsmi statistikadan da görünür ki, ilk dəfə əlilliyi müəyyən edilən 18 və yuxarı yaşda olan şəxslərin sayı 2000-2016-cı illərdə tam aydın şəkildə artma tendensiyası ilə dəyişməsinə baxmayaraq, 2016-2023-cü illərdə əskinə, daha sürətlə azalma tendensiyası müşahidə edilmişdir: bu illərdə ən yüksək göstərici – 2003-cü ildə 36,9 min nəfər olmuşdursa da, 2023-cü ildə bu, 20,3 min nəfər təşkil etmişdir.

Sonrakı dövrlərdə əlilliyə görə təyinatların sayında azalma tendensiyasının baş verməsi rəsmi səviyyədə əlilliyin qiymətləndirilməsi sisteminin şəffaflaşdırılması, əsassız və ya saxtalaşdırılmadan istifadə olunmuş təyinatların aradan qaldırılması istiqamətində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən kameral və əyani formada aparılan nəzarət-yoxlama tədbirlərinin gücləndirilməsi ilə əlaqələndirilir (“Bu ilin birinci rübündə”; “Bir qrup şəxsə”; “Əlillik təyinatı adsızlaşdırılmış”; Azərbaycan Respublikası Hesablama Palatası 53-54).

**İşsizlikdən sığorta münasibətləri**

İşçi qüvvəsinin əmək bazarına cəlbini stimullaşdıran, eyni zamanda işdən azad olunma və ya iş axtarma kimi sosial həssas dövrlərdə işsizlikdən sığorta ödənişi formasında maddi dəstək göstərilməsilə müşayiət olunan sosial müdafiə mexanizmi olmaqla qanunla nəzərdə tutulmuş hallarda sığortaolunanların itirilmiş əməkhaqlarının kompensasiya edilməsinə yönəldilmiş təminat forması kimi çıxış edən - işsizlikdən sığorta sisteminin mövcudluğu və təkmilləşdirilməsi müasir dövrün ən vacib həyat standartlarından hesab edilməlidir.

Qeyd etmək lazımdır ki, işsizlikdən sığortanın ölkəmizdə tam təşəkküllü tətbiqi sosial sığorta münasibətlərinin inkişafından ötən kifayət qədər gec ərəfədə - əmək bazarında riskin ötürülməsinə əsaslanan münasibətlərin və yeni maliyyələşmə mexanizmlərinin yaradılması, sığortaolunanların itirilmiş əməkhaqlarının kompensasiya olunması və işsizliyin yaranması hallarının qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin görülməsi yolu ilə əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təminat verilməsi məqsədilə 2018-ci ilin 1 yanvar tarixindən qüvvəyə minmiş "İşsizlikdən sığorta haqqında"Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun qəbul edilməsilə başlamışdır. Bununla belə, sonrakı qısa müddətdə təkmilləşdirilmə istiqamətində mühüm işlər görüldüyünü qiymətləndirmək olar:

Belə ki, işsizlikdən sığortanın sistemli şəkildə tətbiqi ilə bağlı islahatlılığın sosial müdafiə sisteminin təkmilləşdirilməsi baxımından əhəmiyyətli cəhətini - buna qədər bu istiqamətdə işsizlik müavinəti formasında verilən ödənişlərin "Məşğulluq haqqında" AR Qanunu ilə tənzimlənilməklə ödənilməsinin həyata keçirilməsilə, bu sosial müdafiə mexanizmi üzrə münasibətlərin tənzimlənilməsi üçün sistemli çərçivəsinin mövcud olmaması şəraitində işsizlik müavinətinin "Sosial sığorta haqqında" AR Qanununun tərkibində bu qanuna 30 sentyabr 2011-ci il tarixli 208-IVQD nömrəli AR Qanunu ilə aparılmış dəyişikliklərə qədər olan müddətdə tətbiq olunmuş məcburi dövlət sosial sığorta haqları hesabına maliyyələşdirməsi praktikasının aradan qaldırılması hesab etmək lazımdır. "İşsizlikdən sığorta haqqında" AR Qanununa 7 avqust 2020-ci il tarixli 163-VIQD nömrəli Qanunla edilmiş dəyişikliklərə əsasən, işsizlikdən sığortanın prinsipləri arasından sığorta ödənişinin məbləğinin diferensiallaşdırılmasının sığorta stajından asılı olaraq müəyyən edilməsi meyarı aradan qaldırılmışdır (sığorta stajının 3 ildən 5 ilə qədər olduqda – 50 faiz, 5 ildən 10 ilə qədər olduqda – 55 faiz, 10 ildən yuxarı olduqda – 60 faiz ilə hesablama metodologiyası 50 faiz miqdarında hesablama ilə əvəz edilmşdir). Bu dəyişiklik haqqında qanun, həmçinin qəbul edilən 24 dekabr 2021-ci il tarixli 444-VIQD nömrəli və 22 dekabr 2023-cü il tarixli 1064-VIQD nömrəli Qanunlar əmək münasibətlərinə xitam verildiyi vaxt müvafiq qaydada Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində işsiz kimi qeydiyyata alınmaq şərtilə sığorta ödənişini almaq hüququ olan sığortaolunanların əhatə dairəsini genişləndirmiş, eyni zamanda əmək müqaviləsinə xitam verilməsinin konkret halları üzrə bu kateqoriyalardan

olanlara münasibətdə sığorta hadisəsinin baş verdiyi tarixdən əvvəlki 24 təqvim ayı ərzində ən az 3 il staj tələbinin 12 təqvim ayından çox müddət tələbi ilə əvəz edilməsi və s. kimi hallar işsizlikdən sığorta ilə əhatə olunmanın əhatə dairəsinin genişlənməsi istiqamətində əhəmiyyətli olmuşdur.

Bu prizmadan digər bir əhəmiyyətli məqamı olaraq isə - "İşsizlikdən sığorta haqqında" AR Qanununda dəyişiklik edilməsi barədə 7 mart 2023-cü il tarixli 836-VIQD nömrəli Qanunla dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan məqsədli dövlət maliyyə fondu kimi büdcə sisteminə ayrıca kateqoriya olaraq "işsizlikdən sığorta fondu" yazılışında büdcədənkənar dövlət fondunun təsis edilməsini, onun vəsaitlərinin idarə edilməsi səlahiyyətlərinin Dövlət Məşğulluq Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə olunmasını, eyni zamanda adıçəkilən quruma investisiya fəaliyyəti həyata keçirilməsilə gəlir əldə olunması imkanlarının yaradılmasını hesab etmək lazımdır.

**İcbari tibbi sığortanın tətbiqi**

Mahiyyəti etibarilə sadalanan sosial müdafiə mexanzimləri ilə müqayisədə sonrakı mərhələlərdə formalaşmaqla Azərbaycanda tətbiqi nöqteyi-nəzərdən icbari tibbi sığortanın tətbiqinə də ölkədə kifayət qədər gec başlanılmışdır.

Belə ki, sığorta hadisəsi zamanı əhaliyə icbari tibbi sığortanın maliyyə mənbələri hesabına ilkin səhiyyə xidmətlərinin, təcili və təxirəsalınmaz tibbi yardımın, habelə sığorta olunanlara xidmətlər zərfində nəzərdə tutulmuş şərtlər çərçivəsində tibbi xidmətlərin göstərilməsinə təminat verən dövlətin hüquqi, iqtisadi və təşkilati tədbirlər məcmusu kimi, əhalinin sosial müdafiəsi forması olan - icbari tibbi sığortanın tətbiqinə Azərbaycanda yalnız 2020-ci ilin 1 yanvar tarixindən etibarən başlanılmış, icbari tibbi sığorta ilə bütün ölkə ərazisinin 1 aprel 2021-ci il tarixindən əhatə olunması baş vermişdir ("İcbari Tibbi Sığorta").

Qeyd edək ki, sosial inkişaf istiqamətində əlamətdar tendensiyadır ki, icbari tibbi sığortanın tətbiqi ilə bağlı açıqlanılan göstəricilər icbari tibbi sığortadan istifadənin davamlı olaraq artıdığını göstərir ("Bu ilin ilk").

Bunu sistemin özünün möhkəmlənməsinə, səhiyyə sisteminin, təhsil sisteminin, o cümlədən tibbi təhsilin keyfiyyətinin qarşılıqlı əlaqədə inkişafına, əhalinin tibbi xidmətlərə çəkilən xərclərinin aşağı düşməsinə gətirib çıxarmaqla ev təsərrüfatında formalaşan əhali gəlirləri hesabına ölkədə investisiya resurslarının formalaşdırılması imkanlarının artmasına, daxili bazarın, iqtisadi fəallığın artması ilə gəlirlərin də artımına əlavə şərait yaradacaq olan valyutanın xaricə axının azalmasına, özlüyündə sahibkarlıq subyekti olmaqla özəl tibb müəssisələrinin inkişafına, daha keyfiyyətli tibbi xidmətlərlə əhatə olunması baxımından sosial rifaha müsbət təsirli olaraq qiymətləndirmək olar.

**Məşğulluq və əmək münasibətləri sisteminin təkmilləşdirilməsi**

Müasir dövrdə əsas sosial müdafiə problemlərindən biri olan məşğulluq sisteminin inkişafı istiqamətində ənənəvi məşğulluğa paralel olaraq bu istiqamətdə komplementar əhəmiyyətli proqramların tətbiqi mütərəqqi əhəmiyyətlidir.

2016-cı ildə Azərbaycanda 07 aprel 2016-ci il tarixli Prezident sərəncamı ilə əhalinin özünüməşğulluğuna kömək göstərilməsi üçün 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 6,0 milyon manat ayrılmaqla başlanılan təbdirlər ölkədə özünüməşğulluq proqramının icrasına başlandığı vaxt hesab oluna bilər.

Proqramın aztəminatlı ailələrə onların fərdi təsərrüfatlarını qurmaq və ya inkişaf etdirmək üçün dövlət vəsaiti hesabına ailəyə birbaşa natura şəklində mal, material və digər əmlakın verilməsi (nağd vəsait olmamaq şərti ilə) şəklində dəstək göstərilərək ailəyə təqdim olunmuş biznes plana uyğun olaraq kənd təsərrüfatı, istehsal və ya xidmət üzrə əmlaklarla təmin edilməsini nəzərdə tutması onun Azərbaycanda həyata keçirilən fərqləndirici xüsusiyyətini təşkil etməkdədir. Eyni zamanda özünüməşğulluq proqramı həmçinin alternativ sosial müdafiə tədbirləri ilə müqayisədə əhəmiyyətli üstünlüklərinin olması ilə səciyyələndirilir: Bu proqramın müxtəlif makro məqsədlər iqtiqamətində paralel nəticələrin əldə olunmasına imkan yaratdığı hesab edilməklə, əsas üstünlükləri - ailə büdcəsinin dayanıqlı gəlir mənbələri hesabına formalaşması, mikro və kiçik sahibkarlığın inkişafına, yeni iş yerlərinin yaradılması və işsizlik səviyyəsinin azaldılmasına, ictimai vəsaitlərin (dövlət vəsaitləri) xərclənməsində səmərəliliyin artırılmasına, yoxsulluq səviyyəsinin azaldılmasına, iqtisadiyyatda inkluzivliyin gücləndirilməsinə təsirlərinin olması ilə təsnifatlaşdırıla bilinir (“Özünüməşğulluq”).

Hazırda Dünya Bankı tərəfindən maliyyələşdirilməsi aparılmaqla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən və əsas məqsədi qabaqcıl beynəlxalq təcrübə əsasında özünüməşğulluq proqramını genişləndirmək olan - 2020-2025-ci illərdə uğurlu icra nəticəsində 2025-ci ilin sonunadək 25 mindən çox benefisiarın bu layihəyə cəlb edilməsini hədəfləyən “Məşğulluğa Dəstək Layihəsi” də icra edilməkdədir. Əlilliyi olan şəxslər, şəhid ailəsi üzvləri, aztəminatlı ailələrin üzvləri və digər həssas qruplara aid işsiz şəxslərin istehsal və xidmət sahələri üzrə kiçik biznesə çıxışına imkan yaradılmasını nəzərdə tutan bu layihənin icrası nəticəsində ötən dövrdə 17 mindən çox şəxs üçün kiçik bizneslərin yaradılması ilə layihənin özünün ölkədə tətbiq olunan özünüməşğulluq proqramının genişləndirilməsinə mühüm töhfə verdiyi vurğulanılır (“Məşğulluğa Dəstək Layihəsi”).

Sosial müdafiənin təşkilində mühüm meyarlardan olan maliyyə səmərəliliyinin gözlənilməsi istiqamətində mühüm bir məqam olaraq qeyd etmək lazımdır ki, özünüməşğulluğun tətbiqi ilə bağlı hazırkı prosedurlara görə, seçilmiş özünüməşğulluq istiqamətinin təşkili üçün natura şəklində material, avadanlıq və digər əmlak 1 il müddətinə müqavilə əsasında verilməklə, cəlb olunmuş şəxsin fəaliyyətinin müqavilə müddəti ərzində dövri monitorinqi 1 il müddətində aparılır, həmin müddətinin sonuna şəxsin fəaliyyətinin təqdim edilmiş biznes-plana uyğun olması təqdirində özünüməşğulluğun təşkili üçün verilmiş əmlakın həmin şəxsin mülkiyyətinə verilməsi baş verir ki, bu da istifadəyə verilmiş maddi qiymətlilərdən yararlanılması ilə bağlı nəzarət-monitorinq imkanları və ya bu istiqamətdə verilən qərarların nəticəliliyi ilə bağlı səmərəlilik məsələlərinin də qiymətləndirilməsi zərurətini ortaya çıxarır.

Ölkədə əmək münasibətlərinin inkişafı ilə bağlı əsas fundamental dəyişiklik özünü əmək müqavilələlərinin bağlanması və onlara dəyişikliklər edilməsinin mərkəzləşdirilmiş elektron informasiya sistemi (Əmək və Məşğulluq Altsistemi (ƏMAS)) üzərindən aparılmasında göstərməkdədir. Bu dəyişikliklərin əlamətdar cəhəti – onun bütün sektorlardan müəssisə, idarə və təşkilatlar (işəgötürənlər) üçün asan və operativ fəaliyyət və idarəetmə şəraiti yaratmaqla, eyni zamanda əmək bazarındakı proseslərin müşahidə edilməsi, daha geniş istiqamətli məlumatlar bazası üzərində daha təfərrüatlı təhlillər aparılması və əmək münasibətlərinə nəzarətin təşkili imkanlarını xeyli dərəcədə artırması, eyni zamanda qeyri-leqal məşğulluqla mübarizədə də əhəmiyyətli imkanlar açmasındadır ki, bu da sosial müdafiədə mütərəqqi idarəetmə yanaşmalarından istifadə edilməsi zərurətini daha da artırır.

**Övladlığagötürmə ilə bağlı münasibətlər**

"Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər" haqqında 393 nömrəli 10.12.2018-ci il tarixli Fərmanın qəbulu ilə sosial, psixoloji, hüquqi aspektlərlə daha çox bağlılığı olan övladlığagötürmə sahəsində dövlət siyasəti və tənzimlənmə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət istiqamətlərinə aid edilmişdir.

Bu sahədə həmin vaxtadək müxtəlif idarəetmə orqanları və ayrı-ayrı qurumlar səviyyəsində koordinasiya edilməmiş və sistemsiz şəkildə aparılmış proseslərin vahid mərkəzdən elektronlaşdırılmış şəkildə uçotunun, təyinatının, nəzarətin təşkili və idarə olunmasına keçidin təmin olunmasını son dövrlərdə sosial inkişaf əhəmiyyətli görülmüş mühüm tədbirlərdən hesab etmək olar.

Azərbaycanda sosial müdafiə sahəsinin institusional stukturunun inkişafına töhvə əhəmiyyətli olan bu layihənin övladlığagötürmə sahəsində yeni model və elektron hökümət siyasətini özündə təcəssüm etdirməklə, layihənin məzmununun və strukturunun valideyn himayəsindən məhrum olmuş uşlaqların mənafelərinin qorunmasını əsas tutduğunu, vətəndaşlar tərəfindən sənəd toplamadan və müxtəlif funksiyaları yerinə yetirən dövlət qurumlarına yaxınlaşmadan müraciətlərin vahid elektron hökumət platformasından

aparılmasını təmin etməklə, bürokratik çətinliklərin də aradan qaldırılması imkanlarını ehtiva etdiyini qeyd etmək lazımdır (Valideyn himayəsindən məhrum”).

Əsas məqamlardan biri kimi, həmin vaxt mövcud icra olunan qanunvericiliyə əsasən valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların uçotunun 3 pillədə - ilkin uçotun yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları, mərkəzləşdirilmiş uçotun 3 yaşına qədər uşaqlar üzrə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, 3 yaşdan yuxarı uşaqlar üzrə isə Azərbaycan Respublikasının Təhsil Nazirliyi, ümumi uçotun isə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən aparılması prosedurunun aradan qaldırılması fundamental struktur islahatı mahiyyətində olmaqla sosial inkişafa təkan verən dəyişikliklərdəndir (“Yeni Övladlığagötürmə Prosesi”).

Belə ki, digər çoxsaylı sosial müdafiə xidmətləri ilə yanaşı, övladlığagötürmə ilə də bağlı Nazirliyin mərkəzləşdirilmiş elektron informasiya sistemində 2019-cu il noyabrın 1-dən fəaliyyətinin əsası qoyulan müvafiq altsistem vasitəsilə vahid mərkəzdən təşkilati və nəzarət tədbirlərinin icra edilməsi spesifik sosial mahiyyət daşıyan bu istiqamətdə sosial müdafiə siyasətinin həyata keçirilməsində daha çox şəffaflıq və sosial ədalət prinsiplərinin gücləndirilməsinə xidmət etməklə sosial inkişafa müsbət təsir imkanları ehtiva edir. Sistemin fəaliyyətinin altsistem üzərindən digər dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri və ehtiyatları arasında informasiya mübadiləsi müstəvisində Elektron Hökumət İnformasiya Sistemi, elektron xidmətlər göstərilməsi üzrə isə “Elektron hökumət” portalı vasitəsilə təmin edilməsi isə fəaliyyətin operativ təşkilini təmin etməkdədir.

Övladlığagötürmə mexanizminin icrasının konsepsiya olaraq sosial müdafiə ilə birbaşa əlaqələndirilməsini və əhatə edilməsini “Sosial müavinətlər haqqında” AR Qanununa 6 oktyabr 2020-ci il tarixli 181-VIQD nömrəli Qanunla aparılmış dəyişikliklərə əsasən, övladlığa götürülən uşağa, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağa görə sosial müavinət növünün də təsis olunması nümunəsində vurğulamaq lazımdır (“Sosial Müavinətlər haqqında”).

Övladlığagötürmənin yeni idarə edilməsi sistemi çərçivəsində bu mənada digər mühüm cəhətlərdən biri - 18 yaşınadək əllilliyi olan uşaqların övladlığa götürülməsinin stimullaşdırılması məqsədilə xüsusi sosial müdafiə tədbirlərinin müəyyən olunmasıdır.

Sözügedən sahədə təkmilləşdirilmiş qanunvericiliyə əsasən sosial xidmət müəssisələrindən valideyn himayəsindən məhrum olmuş, həmçinin əlilliyi müəyyən edilmiş uşağın övladlığa götürülməsinə görə orqanizmin funksiyalarının pozulması dərəcələrinə uyğun olaraq (31-60, 61-80 və 81-100 faiz dərəcələndirilməsi əsasında) aylıq sosial müavinət ödənişi ilə bərabər, uşağa əlilliyinə və ona qulluğa görə təyin edilmiş bütün aylıq ödənişlərin də verilməsi təmin olunur ki, bu da, qeyd edilən fikri təsdiq etməyə imkan verir (“Əlilliyi olan uşaqların”).

**Müddətli dövlət proqramları: Sosial inkişafın təşviqində mühüm mexanizm kimi**

Azərbaycanda sosial-iqtisadi inkişaf üzrə sosial müdafiə istiqamətlərini əhatə etməklə konret illər üzrə müddətlərdə icrası nəzərdə tutulan dövlət proqramlarının ardıcıl tərtib edilməsi və icrasının da sosial inkişafda rolu olduğunu hesab etmək lazımdır.

Bu qəbildəndir ki, sosial-iqtisadi inkişaf istiqamətli olmaqla sosial müdafiə məsələlərinin də əsas istiqamətlər olaraq nəzərə alındığı müxtəlif illəri əhatə edən müvafiq dövlət proqramlarının icrası ölkədə sığorta prinsipinə əsaslanan və onun daha da gücləndirilməsini nəzərdə tutan sığorta-pensiya islahatlarının həyata keçirilməsinə, müasir fəlsəfəyə malik sosial ödənişlər (müavinət və pensiya təminatı) sisteminin qurulmasına, hədəflər istiqamətində ünvanlı dövlət sosial yadımı sisteminin inkişafına, onun əhatə dairəsinin genişlənməsinə, sosial xidmətin təşkilinin təkmilləşməsinə təsir etmişdir.

Hazırkı mərhələdə "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası" çərçivəsində nəzərdə tutulmuş istiqamətlərə uyğun sosial-iqtisadi sahələrin və münasibətlərin növbəti inkişafı üzrə müəyyənləşdirilmiş hədəflər üzrə işlər aparılmaqdadır ("Azərbaycan Respublikasının 2022-2026").

Bu proqram çərçivəsində əhalinin artan və təbii olaraq keyfiyyət dəyişmələrinə məruz qalan sosial-maddi ehtiyac və tələbatlarının hərtərəfli ödənilməsi, nəticə etibarilə sosial inkişafının sürətləndirilməsi üçün xüsusən təhsil sahəsi üzrə islahat hədəflərinə yer verilməklə, səhiyyə, bədən tərbiyəsi və idmanla yanaşı, sosial müdafiə tədbirləri olaraq əlilliyi olan şəxslər üçün sosial yardımlara əlçatanlığın artırılması, pensiyaçılar üçün effektiv yığımın, sığorta-pensiya sisteminin maliyyə dayanıqlılığının gücləndirilməsi, dayanıqlı məşğulluq imkanlarının yaradılması, ünvanlı dövlət sosial yardımı, icbari tibbi sığorta ilə əhatə olunan xidmətlərin genişləndirilməsi, məhsuldar əməyin təşviqinə yönəlmiş əməkhaqqı sisteminin inkişafı üzrə mexanizmlərin yaradılmasına nail olunması üçün dövlət səviyyəsində işlərin görülməsinin nəzərdə tutulması sosial inkişafa istiqamətlənilmiş önəmli hədəflərdən xəbər verməkdədir.

Qeyd etməliyik ki, ölkədə yenicə təşəkkül tapan icbari sığorta sisteminin effektivliyi və sosial ehtiyacları ödəməsi səviyyyəsi təkcə bu sistemin özü ilə bağlı idarəetmə amillərindən asılı olmamaqla, bilavasitə sosial müdafiə sahəsi hesab edilməyən – lakin bu sahə ilə əlaqədar olan və müəyyən istiqmətlərdə baza rolunu oynayan - səhiyyə sisteminin inkişafından asılıdır.

Fikrimizcə, sözügedən dövlət proqramının hazırlanmasında məzmun və aktuallıq baxımından zəruri hesab edilərək əhatə edilmiş istiqamətlərin bu sənədin özündə ayrılıqda müəyyən edilmiş indikatorlar və meyarlar əsasında inkişafına nail olunmasının hədəflənilməsi yaxın perspektivdə Azərbaycanda sosial inkişafa potensial akselerativ təsir imkanları kəsb edir. Bu strateji hədəflərin reallaşması isə dövlət idarəetməsi səviyyəsində görülən işlərin effektivliyindən asılıdır.

## *2. Azərbaycanda sosial müdafiə islahatlarının sosial inkişafa institusional təsirləri ilə bağlı problemlər*

Azərbaycanda sosial inkaf istiqamətində sosial müdafiənin təşkili ilə bağlı başlıca problem istiqamətlərinin SWOT analizi metodu ilə icmal qiymətləndirilməsinin verilməsini məqsədəmüvafiq hesab edirik:

**Güclü tərəflər**

- İntitusional olaraq sosial müdafiə Azərbaycanda əhalinin sosial rifahının təmin olunmasında böyük rol oynamışdır;
- Retrospektiv baxışdan ölkədə tətbiq edilmiş başlıca sosial müdafiə mexanizmi kimi, pensiya və müavinətlərlə təminat üzrə kifayət qədər uğurlu fəaliyyətin və davamlı inkişafın müşahidə olunması;
- Əhalidə sosial müdafiə və təminata münasibətdə tələbkarlıqla bağlı stereotiplərin formalaşması;
- Ötən dövr ərzində sosial müdafiə formaları (istiqamətləri) üzrə xidmətlərin təşkili (təklifi) ilə bağlı müraciətlərin ünvanlanılması - müraciətlərə baxılması - qərar qəbulu - təyinat - sosial ödənişlərin çatdırılması - hesabatlılıq-nəzarət-monitorinq proseslərinə münasibətdə elektronlaşmanın geniş tətbiqi üzrə infrastrukturun formalaşmasına və təcrübə əldə olunmasına nail olunması;
- Ötən dövr ərzində sosial müdafiə sisteminin fəaliyyəti ilə bağlı və islahat mənşəli sosial gərginlik hallarının yaşanmaması;

**Zəif tərəflər:**

- Sosial müdafiə proqramlarının çeşidinin genişləndirilməsi yönündə ümumi innovativ təşəbbüskarlılığın digər inkişaf motivləri qədər nəzərəçarpan olmaması;
- Sosial müdafiə islahatlarının maliyyətutumunun artırılması ilə bağlı imkanların islahatlılıqda prioritetləri formalaşdırmaması, yaxud mövcud şərtlərdə alternativ həll yolu kimi, bəzi məqamlarda normativ, sosial müdafiə xərclənmələrinin normativ, texniki-təşkilati və inzibati aspektlərdən irəli gələrək əhalinin müxtəlif sosial qruplarının real ehtiyaclarına münasibətdə tam ədalətli bölüşdürülməsi ilə bağlı boşluqlar;

- Sosial müdafiə münasibətlərinin inkişafında işsizlikdən sığorta, icbari tibbi sığorta kimi sığorta mahiyyətli sosial müdafiə mexanizmlərinin tətbiqinə nisbətən xeyli sonrakı ərəfədə - yaxın dövrlərdə başlanılması və bu sistemlərin keyfiyyətcə hələ də təkamül mərhələsində olması;
- Sosial müdafiənin təşkilinin yerli təcrübəsində sosial müdafiə islahatlarının əslində sosial müdafiənin də nəhayət hədəfi olan və sosial müdafiə sistemindən kənar mühit amilləri ilə qarşılıqlı formalaşan - sosial inkişafa münasibətdə qiymətləndirilməsinə strateji əhəmiyyət verilməsi ilə bağlı yanaşmaların sezilməməsi;
- Azərbaycanda sosial inkişafın ümumilikdə ayrıca bir problem olaraq elmi tədqiqinin hələ də aktuallaşmaması;
- Sosial inkişafda müstəsna və təxirəsalınmaz rolu olması baxımından insanlarda sosial müdafiə sisteminə etimadının gücləndirilməsinə bilavasitə gətirib çıxaran - əməyin mühafizəsi mexaniminin real praktikada işləkliyinin hələ də arzuolunan səviyyədə olmaması;
- Sosial müdafiənin təşkilati və maliyyə təminatı baxımından əsaslandığı sfera olan - əmək münasibətlərinin leqallaşdırılması ilə bağlı işlərin hələ də davam etməkdə olması.

**İmkanlar:**

- Ölkədə formalaşmış strateji dövlət idarəetməsi və sosial dövlət modelinin gücləndirilməsi doktrinasına uyğun olaraq dövlət rəhbərliyi və idarəetmə səviyyəsində sosial müdafiənin təkmilləşdirilməsi, onun əhatə dairəsinin genişləndirilməsi yönündə siyasi iradənin mövcudluğu və davamlılığının hiss olunması;
- Sosial müdafiə xidmətlərinin təşkilində rəqəmsallaşmanın tətbiqi ilə bağlı benefisiarlar (kliyent/fərd/vətəndaş/əhali) səviyyəsində müsbət baxışın, maliyyə savadlılığının artırılmasına və ya bu istiqamətdə maariflənməyə ictimai marağın hiss olunması;
- Ölkədə sosial müdafiənin inkişafı üçün ən vacib meyar hesab etdiyimiz - sosial müdafiənin maliyyə bazasının genişləndirilməsi üçün milli iqtisadiyyatımızda genişlənmə dinamikasının xarakterik olması, sosial müdafiənin növbəti inkişafı ilə də bağlı dövlətin artan maliyyə imkanlarına malik olması, eyni zamanda sosial sığorta və əmək münasibətlərində münasibətlərinə cəlb edilməmiş potensial qeyri-dövlət maliyyə resurslarının olması;
- Azərbaycanda sosial müdafiənin təmin edilməsində ən uğurlu mexanizm kimi, pensiya və sosial müavinətlərlə təminat sahəsi ilə yanaşı, əlilliyin müəyyən edilməsi və bu həlqədən sosial qrupların müvafiq müavinətlərlə əhatə olunması istiqamətində görülən işlərin daha da intensivləşdirilməsi imkanlarının dəyərləndirilməsi mümkünlüyü;
- Respublikanın sosial müdafənin genişləndirilməsinə imkan verəcək potensial maliyyə resurslarına malik olması;

**Təhdidlər:**

- Sosial inkişaf istiqamətində sosial müdafiə sisteminə paralel olaraq, sosial mühitin digər aspektlərinin (təhsil, sosial-maddi infrastruktur, səhiyyə, sığorta-maliyyə sistemi, mənzil-məişət şəraiti, ictimai təhlükəsizlik, cinayətkarlıqla mübarizə, korrupsiya səviyyəsi, xidmət, idman, turizm, mədəni infrastrukturun inkişafı səviyyəsi və s.) adekvat inkişaf etməməsi;
- Sosial inkişafa baxışın dövlət idarəetməsi səviyyəsində konsepsiya mahiyyətində inkişaf hədəfi olaraq ayırd edilməməsi və bu istiqamətdə koordinasiya olunmuş (o cümlədən sosial müdafiə üzrə idarəetmə cəlb olunmaqla) strateji-inkişaf-idarəetmə mərkəzlərinin (institut olaraq) hələ də formalaşdırılmaması;
- Ölkədə mərkəz (paytaxt və böyük şəhərlər) və region əhalisinin məşğulluğu və onun strukturu, maddi vəziyyəti, sosial-maddi infrastrukurun inkişafı səviyyəsi üzrə fərqlərin ciddi olması;
- Sosial müdafiəyə dövlət büdcəsi və büdcədənkənar fondlar vasitəsilə yönəldilən maliyyə resurslarının genişləndirilməsi ilə bağlı mümkün maneələr;
- Sosial inkişafın yuxarıda qeyd olunan müxtəlif aspektlərdən (o cümlədən sosial müdafiə aspektindən) dövlət tənzimləməsi obyekti hesab edilə bilməsi ilə yanaşı, insanların sosial baxışları ilə əlaqədar olan mürəkkəb təkamül prosesi mahiyyətini daşımasından irəli gələrək cəmiyyətdə insanların öz həyat keyfiyyətindəki dəyişiklikləri müsbət qiymətləndirməməsi ilə bağlı stereotiplərin formalaşması;
- Sosial müdafiə fəaliyyətinin nəticələrinin istənilən növ platformada əldə olunan vahid hədəfləri təşkil etməsi baxımından, elektron texnologiyaların tətbiqilə sosial xidmətlərin artan və dərinləşdirilən elektronlaşma mühitində təklifi tendensiyasına münasibətdə xidmətlərin əyani (ənənəvi) qaydada təşkili ilə müqayisədə saxlanma mahiyyətli səmərəsiz xərclərin formalaşması ehtimallarının da artması;
- Qeydiyyatsız və qeyri-leqal əmək münasibətlərinin, eləcə də mülki müqavilələr əsasında qurulan əmək fəaliyyətlərinin makro baxımdan əhalinin sosial müdafiə ilə əhatə olunma imkanlarını və sistemin özünün maliyyə imkanlarını daraltması.

## Nəticə

Beləliklə, Azərbaycanda sosial-iqtisadi inkişafın indiyədək baş vermiş mərhələsində həyata keçirilmiş sosial müdafiə islahatlarının sosial inkişafı instisusional müstəvidə dəstəkləməsi baxımından nəzərəçarpan əsas təsir əlaqələrini aşağıdakı istiqamətlərdə fərqləndirmək lazımdır:

- *Qanunvericilik dəyişiklikləri və təşkilati-idarəetmə tədbirlərilə ünvanlı dövlət sosial yardımı və məcburi dövlət sosial sığortasının maliyyələşmə mənbəyinə görə fərqləndirilməsinin sığorta prinsiplərinə əsaslanan pensiya təminatı sisteminin qurulması, idarə olunması və sonrakı inkişafı üçün imkan rolunu oynaması;*

- *Dövlət sosial sığorta sistemində fərdi uçotun tətbiqinə keçilməklə əmək münasibətləri ilə pensiya təminatı arasında əlaqələndirilmənin gücləndirilməsi, əmək bazarının inkişafı, əməyin stimullaşdırılması və əmək məhsuldarlığının artması imkanlarının genişlənməsi;*

- *Pensiya təminatı sistemində sığorta prinsipinin əsas götürülməsinə keçilməsilə pensiya xərclərinin sığorta əsaslılığı mahiyyətinə görə maliyyələşmə mənbələrinin dövlət büdcəsi və büdcədənkənar fondlar arasında diversifikasiyasının təmin edilməsi və bu məsələnin növbəti perspektiv üçün də maliyyə dayanıqlılığının əsas amili olaraq görülməsi;*

- *Sosial müdafiə sahəsində xidmətlərin təşkilinin rəqəmsal texnologiyaların, o cümlədən sosial müdafiənin müxtəlif istiqamətləri üzrə altsistemlər strukturunda mərkəzləşdirilmiş elektron informasiya sistemi platformasında qurulması, fəaliyyətin təşkilində və qərar qəbulu proseslərində məlumatların emalı məqsədilə həmin sistemin digər dövlət orqanlarının müvafiq elektron bazaları ilə inteqrasiya olunması, bu prosesin gücləndirilməsinin və ona daimi nəzarətin vacib olması;*

- *Sosial şəbəkələrdə təbliğat və maarifləndirilmədən yararlanılması, ictimai iştirakçılıq, beynəlxalq və yerli müstəvidə sosial tərəfdaşlıq və digər innovativ metodların getdikcə genişləndirilən tətbiqi şəraitində həyata keçirilməsi;*

- *Sosial müdafiənin təşkili ilə bağlı prinsiplərə yanaşmada vətəndaş məmnunluğu prinsipinin formalaşması və zamanla daha çox prioritetlik qazanması.*

Təklif edilir ki, mövcud şərtlər nəzərə alınmaqla sosial müdafiənin büdcədənkənar fondlar üzrə maliyyə mənbələri üzrə maliyyə vəsaitlərinin səmərəli, məqsədyönlü və tam təyinatı üzrə xərclənilməsi məsələlərinin daha da gücləndirilməsinə daimi prinsipial yanaşmanın formalaşdırılmasının sosial müdafiənin gələcək maliyyə imkanları və dayanıqlılığı baxımından vacibliyinin nəzərdə saxlanılması diqqətdə saxlanılsın.

Eyni zamanda, hesab edirik ki, səmərəlilik mexanizmlərinin gücləndirilməsi yanaşmasına paralel olaraq, sosial inkişafın sosial müdafiə sistemindən kənar amillərlə qarşılıqlı əlaqədə və vəhdətdə baş verməsi və sosial müdafiənin özünün sosial inkişafın bir alt aspektini təşkil etməsi baxımından sosial müdafiənin sosial inkişafa təsiri imkanlarının artırılması istiqamətində tədbirlərin görülməsi, sosial müdafiənin mahiyyəti və məqsədinin ana fəlsəfəsi də nəzərə alınaraq sosial müdafiə xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi, onun maliyyə tutumunun daha da artırılması, sosial müdafiə istiqamətləri üzrə xidmətlərinin təşkili və təqdim olunması nomenklaturasının daha da dərinləşdirilməsi və genişləndirilməsi kursunun saxlanılmasına əhəmiyyət verilməsi növbəti mərhələdə Azərbaycanda sosial inkişafın təmin olunması istiqamətində effektiv nəticələr verə bilər.

## Açıqlama bəyanatı

Məqalə çərçivəsində təqdim edilən məlumatlar və irəli sürülən mülahizələr müəllifin elmi yanaşması olmaqla, qurum (rəsmi) mövqeyini əks etdirməməkdədir.

## Əlaqə

**E-mail**: alirzayev@gmail.com

## Ədəbiyyat :


Abay, Kibrom A., et al. "Revisiting poverty trends and the role of social protection systems in Africa during the COVID-19 pandemic." Journal of African Economies 32.Supplement_2 (2023): ii44-ii68. https://doi.org/10.1093/jae/ejac041

"Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, 05.12.2023, e-qanun.az/framework/55872. 01.10. 2024.

"Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 26.12.2023, https://e-qanun.az/framework/55892. 05.10.2024.

"Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 22.07.2022, https://e-qanun.az/framework/50013. 04.10.2024.

"Azərbaycanda əlilliyi olan şəxslərin sosial müdafiəsi və tibbi-sosial reabilitasiyası dövlətin sosial siyasətinin mühüm tərkib hissəsidir." Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, 02.12.2019, https://sosial.gov.az/media/xeberler/2952. 25.09.2024.

Azərbaycan Respublikası Hesablama Palatası. "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2020-ci il büdcəsi haqqında." Azərbaycan Respublikasının Qanun Layihəsi, 21.12.2019, https://sai.gov.az/files/DSMF_layihe2020.pdf. 26.10.2024.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 18 may 2022-ci il tarixli 191 nömrəli qərarı, 18.05.2022, https://nk.gov.az/uploads/doc/docs/old/a69c1ff0a813cd7894fdfc51d39ef01a.pdf. 06.10.2024.

"Bir qrup şəxsə hərbi səbəblərlə əlaqəli aparılmış əlillik təyinatları şübhə doğurduğundan müvafiq araşdırma aparılıb."Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, 05.03.2019, https://sosial.gov.az/media/xeberler/2049. 30.10.2024.

"Bu ilin birinci rübündə ilkin əlillik təyinatları 49% azalıb." Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, 26.04.2019, https://sosial.gov.az/media/xeberler/2255. 28.09.2024.

"Bu ilin ilk 6 ayı ərzində əhalinin 34%-i icbari tibbi sığortadan yararlanıb." İcbari Tibbi Sığorta Üzrə Dövlət Agentliyi, 28.07.2023, https://its.gov.az/bloq/2638/bu-ilin-ilk-6-ayi-erzinde-ehalinin-34-i-icbari-tibbi-sigortadan-yararlanib 10.04.2024

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu, 02.07.2002, https://e-qanun.az/framework/1126. 05.10.2024.

"Dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. 05.12.2023, https://e-qanun.az/framework/55873. 05.10.2024.

Əliyev, F., Mürşüdov."Vətəndaşların pensiya təminatı haqqında"Azərbaycan Respublikası Qanununun şərhinə dair metodiki normativ materiallar.Bakı: Az.K.C. mətbəəsi, 1994.

"Əlillik təyinatı adsızlaşdırılmış qaydada və vətəndaş-məmur təması olmadan aparılır." Azərbaycan Dövlət İnformasiya Agentliyi, 26.04.2021, . https://azertag.az/xeber/elillik_teyinati_adsizlasdirilmis_qaydada_ve_vetendas_memur_temasi_olmadan_aparilir-1765481. 30.10.2024.

"Əlilliyi olan uşaqların övladlığa götürülməsi üçün aylıq sosial ödənişlər nə qədərdir?". Azərbaycan Respublikası Sosial Müdafiə Nazirliyi, 04.06.2024, https://sosial.gov.az/media/xeberler/elilliyi-olan-usaqlarin-ovladliga-goturulmesi-ucun-ayliq-sosial-odenisler-ne-qederdir . 30.10.2024.

Hirvonen, Kalle. "Social protection: Adaptive safety nets for crisis recovery." (2023). https://doi.org/10.2499/9780896294417_05

"İcbari Tibbi Sığorta." Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, https://sehiyye.gov.az/vetendaslar-ucun/icbari-tibbi-sigorta. 04.10. 2024.

Kangasniemi, Mari, et al. "The role of social protection in achieving resilient and inclusive rural transformation." Global Food Security 44 (2025): 100836. https://doi.org/10.1016/j.gfs.2025.100836

"'Məşğulluğa Dəstək Layihəsi' üzrə artıq 17 mindən çox şəxs üçün kiçik bizneslər yaradılıb." Dövlət Məşğulluq Agentliyi, 21.10.2024, https://dma.gov.az/media/xeberler/mesgulluga-destek-layihesi-uzre-kicik-biznesler-yaradilib?hl=az. 09.10.2024.

“Özünüməşğulluq.” Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, https://dma.gov.az/fealiyyet/funksional-istiqametler/issiz-ve-isaxtaranlarla-is/ozunemes. 07.10.2024.

“Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanunu, 07.02.2006, https://e-qanun.az/framework/11508#_ednref8. 10.10.2024

“Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 27.02.2020, https://e-qanun.az/framework/44673. 09.10.2024

“‘Yeni Övladlığagötürmə Prosesində Idarəetmə ASANlaşacaq.’” Yeni Azərbaycan, 04.12.2019, https://www.yeniazerbaycan.com/SonXeber_e58773_az.html . 10.10.2024.

**Məqaləyə istinad:** Əlirzayev.E. Azərbaycan Respublikasında sosial müdafiə islahatlarının sosial inkişafa institusional təsirləri . Elm və İnnovativ Texnologiyalar Jurnalı. Nömrə 32, 2025. s.34-58. https://doi.org/10.30546/2616-4418.32.2025.2034

## SUMMARY

### Institutional effects of social protection reforms on social development in the Republic of Azerbaijan



**Emin ALIRZAYEV**
*Azerbaijan State University of Economics (UNEC), Azerbaijan*



**The purpose of the study** is to assess the role of social protection reforms implemented within the framework of the social protection system formed on the example of the Republic of Azerbaijan as one of the basic manifestation aspects of the general impact of social protection on the social development at the institutional level.

**Research methodology -** The research process is carried out by comparative scientific analysis of the local practice, theoretical and organizational-normative bases formed at the management level in the field.

**Application importance of the research -** The analyzes conducted in the study based on the evaluation of the current results of social protection activities on the institutional development aspect in the example of the current social protection model in Azerbaijan are of theoretical-conceptual and practical importance in terms of determining the actual strategic reform goals in the direction of improving the social protection system in the next stage of development.

**The results of the research -** the analyzes conducted on the topic were directed to the formation of a scientifically based perception of the effectiveness of social protection reforms from the aspect of institutional impact on social development and optimal decision-making, based on the structure of the social protection system in Azerbaijan, the related normative base and management experience.

**The originality and scientific novelty of the research**, in the context of the current development of the social protection system within the social state model of Azerbaijan, considering social development as a special scientific category in the economic approach in relation to social protection, is the evaluation of the results and features of the efficiency of social protection reforms in the example of the social protection directions chosen by

the author as a priority for the social development of the country in a retrospective review, and the strengthening of the theoretical base for determining the next course of regulation based on the experience learned on this basis.

***Keywords:*** *Social development, social protection, social security, social welfare*

## РЕЗЮМЕ

## Институциональные эффекты реформ социальной защиты на социальное развитие в Азербайджанской Республике

**Эмин АЛИРЗАЕВ**
***Азербайджанского государственного экономического университета (UNEC), Азербайджан***

**Целью исследования** является оценка роли реформ социальной защиты, реализуемых в рамках системы социальной защиты, сформированной на примере Азербайджанской Республики, как одного из основных аспектов проявления общего воздействия социальной защиты на социальное развитие на институциональном уровне.

**Методология исследования** - Процесс исследования осуществляется путем сравнительного научного анализа местной практики, теоретической и организационно-нормативной базы, сформированной на уровне управления в данной сфере.

**Прикладное значение исследования** - Анализы, проведенные в исследовании на основе оценки текущих результатов деятельности социальной защиты по аспекту институционального развития на примере действующей модели социальной защиты в Азербайджане, имеют теоретико-концептуальное и практическое значение с точки зрения определения актуальных стратегических целей реформ в направлении совершенствования системы социальной защиты на следующем этапе развития.

**Результаты исследования** - Анализы, проведенные по теме, были направлены на формирование научно обоснованного восприятия эффективности реформ социальной защиты с точки зрения институционального воздействия на социальное развитие и принятия оптимальных решений, исходя из структуры системы социальной защиты в Азербайджане, соответствующей нормативной базы и опыта управления.

**Оригинальность и научная новизна исследования** - в контексте современного развития системы социальной защиты в рамках модели социального государства Азербайджана, рассматривая социальное развитие как особую

научную категорию в экономическом подходе по отношению к социальной защите, заключается в оценке результатов и особенностей эффективности реформ социальной защиты на примере направлений социальной защиты, выбранных автором в качестве приоритетных для социального развития страны в ретроспективном обзоре, и укреплении теоретической базы для определения следующего курса регулирования на основе полученного на этой основе опыта.

***Ключевые слова:*** *Социальное Развитие, социальная защита, социальное обеспечение, социальное обеспечение*